**_Qədim Azərbaycan torpağı olan Hadrut strateji əhəmiyyət daşımaqla yanaşı, eyni zamanda, böyük iqtisadi əhəmiyyət daşıyır. Qəsəbə 1458 kvadratkilometr sahəsi olan Xocavənd rayonunun ərazisində yerləşir, böyük iqtisadi və turizm potensialı ilə seçilən bölgələrimizdən biridir._**

**_Hadrut kənd təsərrüfatının fərqli sahələrinin inkişafı üçün əlverişli şəraitə malikdir. Qafqazda qış, yay, müalicəvi, tarixi və dini turizm imkanları ilə seçilən bölgələrdəndir._**

# Yaxın gələcəkdə Hadrut öz tarixinin yeni və şərəfli mərhələsini yaşayacaq

Böyük turizm potensialı Hadrutda qısa zamanda iqtisadi aktivliyi bərpa etməyə imkan verəcək. Tamamilə türk mənşəli oronomik toponimlərə sahib olan qəsəbə ən qədim insan məskənlərindən biri hesab olunur. Böyük yararlı torpağa malik bu ərazidə heyvandarlıq sahəsinin daha çox inkişaf etməsi imkanları var. Bununla yanaşı, aqrar sektorun fərqli sahələrinin inkişaf imkanları da mövcuddur.

Hazırda inşa edilən Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolu işğaldan azad olunan bu qəsəbəmizin iqtisadi potensialının reallaşmasına imkan verəcək. Bu yol başlanğıcını Azərbaycanın tarixi ərazisi olan Qarabağdan, yəni Hadrut yaşayış məntəqəsindən götürəcək və düşməndən təmizlənən digər bölgələri birləşdirəcək. Belə ki, dörd hərəkət zolaqlı yol Cəbrayıl rayonundan keçməklə Şükürbəyli kəndinədək uzanacaq. Digər tərəfdən, yeni yol Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi avtomobil yoluna birləşəcək. Praktik olaraq Zəngəzur dəhlizi vasitəsilə "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizinə inteqrasiya olunacaq. Bu isə Hadrut



qəsəbəsində iqtisadiyyatın formalaşacağını və istehsal ediləcək məhsulların daha geniş bazarlara çıxarılacağını şərtləndirəcək.

Beləliklə, yaxın gələcəkdə bu yaşayış sahəsi potensial baxımından Qarabağ iqtisadiyyatında xüsusi paya malik olacaq. Uzun müddət baxımsız şəhər olan Hadrut öz tarixinin yeni və şərəfli mərhələsini yaşayacaq.

**_Vüqar BAYRAMOV,_**
**_Milli Məclisin deputatı_**

Xalq qəzeti.- 2021.- 12 oktyabr.- S.10.